# İCTİMAİ FAYDALI FƏALİYYƏTİN ELMİ SƏMƏRƏLİLİYİ

***Nərminə Faiq qızı İsmayılova***
*dissertant*
*İqtisadiyyat Nazirliyinin tabeliyində İqtisadi ETİ*
*H.B.Zərdabi pros. 196*
*inarmina@rambler.ru*

***Açar sözlər:*** *motiv, təmayül, Beynəlxalq könüllülük standartı, epizodik könüllü, E-könüllü*
***Ключевые слова:*** *мотив, тренд, Международный стандарт волонтерства, эпизодический волонтер, Э-волонтер*
***Keywords:*** *motive, trend, International standard of volunteering, occasional volunteer, E-volunteer*

**Xülasə:** Kitabxana və könüllü arasındakı elmi-ictimai nəticəli fəaliyyətin qarşılıqlı səmərəliliyinin əks etdirilməsinə hədəflənmiş tezisdə könüllü fəaliyyəti sahəsində beynəlxalq təmayül, Azərbaycan-da könüllü fəaliyyətinin beynəlxalq meyarlarına uyğunluğu, "MEK Könüllüləri"nin dissertasiya işinə töhfəsi, E-könüllü proqramının tətbiqinə dair təklif əsas istiqamətlər kimi vurğulanmışdır.

**Резюме:** В нацеленном на отражение взаимной эффективности научно-общественной результативной деятельности между библиотекой и волонтером тезисе основными направлениями выделены международная тенденция в сфере волонтерской деятельности, соответствие во-лонтерской деятельности в Азербайджане международным критериям, вклад «Волонтеров ЦНБ» в диссертационную работу, предложение по внедрению программы Э-волонтер.

**Summary**: In the aimed at reflecting the mutual effectiveness of scientific-social productive activity between library&volunteer thesis, as the main directions, were highlighted the international trend in the field of volunteer activity, the compliance of volunteer activity in Azerbaijan with international criterias, the contribution of "CSL Volunteers" to the dissertation work, proposal for the implementation of the E-volunteer program.

**Giriş:** Dünya praktikasında könüllü fəaliyyətinə sövq edən motivləri sosial, ruhi, dini (altruistik) ehtiyacların və ya şəxsi faydaların (eqosentrik), və ya hər ikisinin kombinasiyasının ödənilməsi, hərdən qorxulara qarşı durmaqdan ibarət olan könüllülük fenomeni bir sıra ölkələr tərəfindən əhəmiyyətli problemlərin həlli qismində tətbiq edilməkdədir [5, c. 146-150].

**Könüllü fəaliyyətində beynəlxalq təmayül və ona uyğunluq.** Xarici tədqiqatçı və ekspertlərin fikirlərinə görə XXI əsr bütün dünya miqyasında könüllülərə ehtiyacın artması ilə səciyyələnəcəkdir [5, c. 146]. Bu kontekstdə Azərbaycan Respublikasında (AR) fəal inkişaf edən könüllü fəaliyyətinin ölkədə qəbul edilmiş "Könüllü fəaliyyət haqqında" AR-nın Qanunu (Qanun) və 2024-cü ildə yaradılmış "MEK Könüllüləri"ndə təzahürü üzərindən beynəlxalq təmayülə uyğunluğunu (*) müəyyən etmək üçün İnkişaf məqsədilə könüllülük üzrə beynəlxalq Forumunun hazırladığı Beynəlxalq könüllülük standartının (BKS) formalaşdırmış "könüllü"nün tərifindən tərəfimizdən tərtib edilmiş parametrlər prizmasından araşdırılmış müqayisəli sistemləşdirilməsi aparılmışdır (cədvəl 1).

**Cədvəl 1**. Könüllü fəaliyyətinə dair təcrübələrin müqayisəsinin sistemləşdirilməsi

| *Parametr* | **BKS** | **Qanun** | * | **“MEK Könüllüləri”** | * |
|---|---|---|---|---|---|
| *müddət* | uzun / və ya qısa | | + | / qısa (3: ay, növbəli, saat) | /+ |
| *təşkilatla razılaşma* | müəyyən formada | AR-nın qanunvericiliyi və bağlanan müqaviləyə uyğun tənzimlənir | + | müqavilə | + |
| *müavinət* | müavinətli / və ya onlarsız | / əvəzi ödənilməyən; əmək haqqı ödənilməyən | / + | / əmək haqqı ödənilməyən [tövsiyə məktubu, bir illik oxucu bileti, sertifikat verilir] | /+ |
| *məqsəd* | vaxtını başqalarına köməyə qurban vermək | ictimai faydalı fəaliyyəti həyata keçirmək | + | işin effektivliyini yüksəltmək [praktiki bilikləri mənimsəmək, peşəkar kitabxa-naçı kimi formalaşmaq] | + |
| *işləyən səviyyə* | beynəlxalq / və ya milli | əcnəbi, vətəndaşlığı olmayan şəxs / ölkə vətəndaşı [beynəlxalq/və milli] | + | | + |
| *tədbirlərdə iştirak* | tədqiqat, sorğu, seminar və məsləhət qruplarında iştirak | kömək (yardım), təbliğ, maarifləndirmə, irsin qorunması, AR-nın qanunvericiliyi-nin tələblərinə zidd olmayan fəaliyyət | + | tədbirlər və rəy sorğularının təşkilində iştirak, əlil və yaşlı oxuculara xidmət, AR-nın qanunvericiliyinin tələblərinə zidd olmayan di-gər fəaliyyət sahələrində iştirak | + |
| *ətraf mühitin mühafizəsi* | iqlim dəyişikliyinin qarşısı alınmasının dəstəklənməsi; təbii mühitə zərər verməməsi | ətraf mühitin mühafizəsi | | “MEK-ə yaşıl töhfəsi” aksiyası; COP29 çərçivəsində Novxanı çimərliyində sahilyanı təmizlik aksiyası | + |
| *əhatə dairəsi* | rəsmi strukturu olmayan icmalarda çalışmalı | AR-nın qanunvericiliyilə qadağan edilməyən işlərin görülməsi, xidmətlərin göstərilməsilə bağlı fəaliyyət olmalı [öz iş yerində könüllü fəaliyyətilə məşğul olmalı/işçi çatışmazlığının qarşısını almaq üçün istifadəsinə və kommersiya hüquqi şəxslə-rində yol verilməməli] | | qeyri-komissiya qurumu, strukturuna daxil olan şöbə və filiallardan ibarət vahid sistemi olan hüquqi şəxsdir / [intizamlılıq, işgüzarlıq, ünsiyyətçilik, operativlik, kollektivlə işləmək bacarığı/kompüter bacarığı/dil biliyi] | + |

Mənbə: müəllif tərəfindən tərtib edilmişdir [4, c. 26; 2; 1].

Xarici tədqiqatçıların nəticələrini təsdiqləyən araşdırmanın nəticələrinə görə əsas komanda-nın tədbirin təşkili üzrə səylərilə parallel onun digər üzvlərinin epizodik könüllüyə göstərdiyi müna-sibət məmnuniyyətə, məmnunluq isə onun başqa bir könüllü tədbirinə qoşulmaq niyyətinə ən güclü təsirin göstərdiyi, həmçinin müntəzəm könüllülərdə olduğu kimi, epizodik könüllülərin xidmət tə-minatçı-

ları deyil, iştirak etdikləri tədbirin istehlakçıları olduqları bəlli olmuşdur [3, c. 386; c. 400]. Digər pilot tədqiqatın nəticələri isə motivi vəziyyət və ya yardım göstərən şəxsin fərdi xüsusiyyətlə-rilə şərtləndirilə bildiyini sübut edir [5, c. 152].

2021-ci ildə yenilənmiş BKS-in diqqət yetirdiyi 5 açar sahələri sırasında virtual könüllülük olmuşdur ki, bu xüsusən COVID-19 pandemiyası ilə əlaqədar və ona cavab olaraq Forumun BKS-in virtual könüllülüyü üçün aktual, lakin onlayn, məsafəli, distant, rəqəmsal könüllü fəaliyyətini daha da əhatə etmək üçün əlavə dəyişikliklərə ehtiyac olduğu qənaətinə gəlinmişdir [4, c. 4; c. 17].

**Dissertasiya işinin araşdırılmasında AMEA MEK-in imkanlarının tətbiqi.** Könüllülüyün inkişafı ilə bərabər yaradıcılıq fəaliyyətləri dəstəkləyən AMEA MEK-in Nizamnaməsinə əsasən məqsədinin bir istiqaməti müasir elmi araşdırmaların aparılması üçün informasiya təminatının yaxşılaşdırılmasıdır [1]. Beləliklə, "MEK Könüllüləri"ndə könüllü fəaliyyətimin gedişatında müvafiq – AMEA MEK-in saytının E-xidmətlər başlığının bölmələri – təminatının mövzu və obyekti sənaye parkını ehtiva edən dissertasiya işimdə – mövzunun işlənmə dərəcəsini əks etdirə bilən məlumatların müəyyən edilməsində – tətbiqi imkanları araşdırılmışdır. Beləliklə, E-kataloq bölməsinin Dissertasiya/Avtoreferatlar funksiyası və Azərbaycan kitabxanaları bölməsində Azərbaycan Milli (AMK) və Prezident (PK) Kitabxanalarına yerləşdirilmiş keçiddən E-kataloq bölmələrinin Dissertasiya/Avtoreferatlar məzmunlarından müvafiq məlumat tapılmamışdır [1].

**Nəticə:** Belə ki, bu proyeksiya üzrə könüllü fəaliyyətinin elmi səmərəliliyi elm-kitabxana-cə-miyyətin qarşılıqlı əməkdaşlığının töhfəli forması çərçivəsində kitabxanaların elmdə informasiyanın yaradıcı və istehlakçıları ilə vasitəçilik təyinatından ibarət olaraq informasiyaya daxil olmanı təq-dim etmədən başlayaraq qərarların qəbul edilməsində istifadəyə qədər elmi tədqiqatın bütün fazala-rına cəlbi, cəmiyyətdə könüllülər vasitəsilə yerli ictimaiyyətlə əlaqələrin gücləndiyi, sosial layihələ-rin reallaşdırılmasında uğur qazandığı, yeni ideyalarla zənginləşdiyi elementlərilə əks etdirmək olar.

Aparılmış tədqiqatdan müəyyən edilmişdir ki: - kitabxana bu kontekstdə könüllülük fəaliyyə-tilə fərdi və cəmiyyətin ehtiyaclarının ödənilməsi, elmi yaradıcılığın informasiya təminatını birləş-dirməyə imkan verir; - könüllülərin öz fəaliyyətinin reallaşdırma formaları ölkəmizdə hüquqi müs-təvidə təyin edilmişdir; - "könüllü"nün tərifinə əsasən beynəlxalq parametrlərə ölkəmiz üzrə müva-fiq təzahürünün uyğunluğu üzərindən könüllü fəaliyyətinə dair təcrübələrin müqayisəsinin elmi ye-nilik səciyyəli sistemləşdirilməsi həyata keçirilmişdir; - könüllülük fəaliyyətində gələcək iştirakları üçün epizodik könüllü məmnuniyyəti əhəmiyyətlidir; - dissertasiyaların avtoreferatlarının göndəril-məli olduğu təşkilatların siyahısında olan AMK, PK və AMEA MEK-in bazalarında sənaye parkını ehtiva edən tədqiqat mövzusu üzrə dissertasiya/avtoreferatlar tapılmadığından bu obyektlə vəhdətdə olan mövzu üzrə ölkədə hər hansı dissertasiya işinin müdafiə edilmədiyini vurğulamaq olar.

Perspektivə gəldikdə ölkədə kitabxana platformasında təməli AMEA MEK-də qoyula bilən, prioriteti könüllülük proqramının tədqiqat yönümlülüyünə töhfəsini vermək istəyən vətəndaş, hə-vəskar/peşəkar tədqiqatçı, təcrübəli həmkarların potensial, bilik və bacarıqlarının səmərəli tətbiqinin genişləndirilməsi olan, tərifi beynəlxalq təcrübədə ümumi olaraq virtual, onlayn, distant, məsafəli, rəqəmsal könüllülükləri terminləri ilə ifadə edilən "MEK E-könüllü" onlayn könüllü proqramına dair təklif irəli sürülməkdədir ki, bu da AMEA MEK-in Nizamnaməsinin 2.2.6-cı, 2.2.9-cu bəndlə-rinə əsasən vəzifələr və 2.3.7-ci bəndinə uyğun olaraq həyata keçirdiyi işlərlə əsaslandırıla bilər [1].

## Ədəbiyyat


1. AMEA MEK: [Elektron resurs] / AMEA MEK. – Bakı, 2025. – URL: http://mek.az/
2. "Könüllü fəaliyyət haqqında" Azərbaycan Respublikasının Qanunu: [Elektron resurs] / Hüquqi aktların vahid elektron bazası. – Bakı, 9 iyun, 2009, № 828-IIIQ (19 may 2020-ci il tarixdə dəyişiklik və əlavələr). – URL: https://e-qanun.az/framework/18159

3. *Краснопольская, И.И., Гусева, П.Д., Мейс, Л., Кнаан, Р*. Факторы удовлетворенности эпизодических волонтеров // – Москва: Мониторинг общественного мнения: экономические и социальные перемены. – 2022. – № 2, с. 384-408.

4. Международный стандарт волонтерства / Международный форум добровольчества в целях развития. – Дублин 2: МФДЦР, – 2021. – 37 с.

5. *Стегний, В.Н., Никонов, М.В*. Мотивация волонтерской деятельности // – Пермь: Вестник ПНИПУ. Социально-экономические науки. – 2018. – № 1, с. 146-156.